**Yazın ilk bayramlarından biri Azərbaycan Milli Teatr Günüdür. Əsr yarım öncə peşəkar milli teatrımızın təməli məhz Novruz ərəfəsində – martın 10-da qoyulub.**

# Səhnəmizin sənət bayramı tamaşaları

Əslində, xalq teatrının, milli oyun mədəniyyətinin tarixi onun peşəkar səhnə ənənəsindən çox qədimdir. Ulularımızın "Xıdır Nəbi", "Novruz", "Qodu-qodu", "Kosa-Keçəl" və sair tamaşaları bunu deməyə əsas verir. Amma rejissor yozumlu, aktyor mizanlı teatrımızın 151 yaşı var.



Böyük maarifçilər Həsən bəy Zərdabi və Nəcəf bəy Vəzirovun təşəbbüsü, aktyor Əsgər ağa Adıgözəlov (Gorani) və Realnı məktəbin şagirdlərinin iştirakı ilə 1873-cü il martın 10-da Bakıda Mirzə Fətəli Axundzadənin "Lənkəran xanının vəziri" komediyası səhnələşdirilib. Bununla da bütün müsəlman Şərqində peşəkar teatrın təməli qoyulub.

Ənənəvi olaraq, teatr camesi və sənətsevərlərin bu günü sənət ocaqları premyera, fərqli tədbirlərlə qeyd edirlər. Bəs, bu il Milli Teatr Günü nə ilə yadda qalacaq?

Akademik Milli Dram Teatrı bu gün axşam tamaşaçılarını premyera – "Əsrə bərabər gün"lə salamlayacaq. Görkəmli qırğız yazıçısı Çingiz Aytmatovun məşhur romanı əsasında hazırlanan tamaşanın quruluşçu rejissoru Əməkdar incəsənət xadimi Mehriban Ələkbərzadədir. Azərbaycan Dövlət Akademik Musiqili Teatrında saat 12:00-da "İki küpəgirən qarı" (Ə.Əlizadə, R.Sef, T.Karelina) musiqili nağıl-tamaşası balacaların ixtiyarına veriləcək. Tamaşaya rejissor Əhəd Hacıyev quruluş verib.

Akademik Opera və Balet Teatrı "Trubadur" operasının növbəti tamaşasını (BMA-nın Opera Studiyasının səhnəsində) təqdim edəcək. Akademik Rus Dram Teatrında dramaturgiyamızın banisi M.F.Axundzadənin "Müsyö Jordan və dərviş Məstəli şah"ı yenidən təqdim ediləcək. Dövlət Gənc Tamaşaçılar Teatrı günorta saatlarında uşaqları "Möcüzəli pillələr"ə "qaldıracaq". Səhnə əsərinin müəllifi mərhum Xalq artisti Ağaxan Salmanlıdır. Axşam seansında isə Əməkdar artist Nicat Kazımovun quruluşunda Xalq artisti Naibə Allahverdiyevanın "Gerçəkləşməyən arzular"ının benefisi olacaq.

Azərbaycan Dövlət Kukla Teatrı da peşə bayramına premyera ilə gəlir. X.Əlibəylinin – "Dovşanın ad günü" mənzum pyesi kuklaçıların yeni yozumunda səhnəyə çıxacaq. Tamaşanı Səida Haqverdiyeva səhnələşdirib.

Milli Teatr Günündə bölgə teatrları "açıq qapı" aksiyaları keçirəcəklər. Sənətsevərlər ödənişsiz tamaşa seyr edə biləcəklər.

***Ə.DOSTƏLİ***
***XQ***

Xalq qəzeti .- 2024.- 10 mart, № 54.- S.10.